AZƏRBAYCAN RESPUBLİKASI
KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ
-----------------------------------------------------------------------
AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**ARZU RƏHİM QIZI SÜLEYMANOVA**

# AQRAR SAHİBKARLIĞIN İNKİŞAFINDA MALİYYƏ-KREDİT MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN TƏŞKİLATİ-İQTİSADİ PROBLEMLƏRİ

**5312.01 – "Sahə iqtisadiyyatı"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Gəncə - 2016**

Dissertasiya işi Azərbaycan Kooperasya Universitetinin “Pul tədavülü və bank işi” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Rəsul Ənvər oğlu Balayev**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Vahid Hacıbəy oglu Abbasov**

iqtisad üzrə fəlsəfə doktoru
**Sevda Tofiq qızı Hacıyeva**

**Aparıcı təşkilat:** **Kənd Təsərrüfatı Nazirliyinin Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutu**

Müdafiə 31 may 2016-cı il saat $12^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az 2000, Gəncə, A.İsgəndərov küçəsi, 64, 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 30 aprel 2016-cı ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **A.A.Həsənov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan iqtisadiyyatı son illər dinamik inkişaf edir və ölkənin sosial-iqtisadi inkişafı istiqamətində qarşıda duran başlıca vəzifələr uğurla icra olunur. Artıq respublikamızda iqti qeyri-neft sahələrinin inkişafı üzrə yüksəliş müşahidə olunmaqdadır. Bu sektorda aparıcı sahələrdən biri də aqrar sahədir. Aqrar sahənin dinamik inkişafı burada aparılan ardıcıl və məqsədyönlü islahatların məntiqi nəticəsidir. Sahibkarlığın inkişafında maliyyə-kredit mexanizminin həm təşkilatı, həm də iqtisadi məsələlərindən düzgün istifadə olunması onun dayanıqlı, rəqabət qabiliyyətli inkişafını təmin etmişdir. Aqrar sahədə sahibkarlığın inkişafına ilbəil artan investisiya qoyuluşları sahənin yeni texnoloqiyalarla məhsul istehsalına imkan verir. Kənd əhalisinin illər üzrə artan pul gəlirləri regionların real iqtisadi inkişaf dinamikasını təsdiqləyən amillərdən biridir. Sahibkarlığın inkişafına qoyulan investisiyalar, respublika əhalisinin ərzaq məhsuları ilə daha dolğun təminatına imkan vermişdir. Respublikanın regionlarında əkin dövriyyəsinə cəlb olunan yeni sahələr kənd təsərrüfatının inkişafına və aqrar sahibkarlığın yüksəliş tempinə təkan vermişdir.

“Sahibkarlıq fəaliyyəti” haqqında Azərbaycan Respublikasının Qanunu, “Ailə-kəndli təsərrüfatı” haqqında Azərbaycan Respublikasının Qanunu, “Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi” haqqında Azərbaycan Respublikasının Qanunu, “Kənd təsərrüfatında sığortanın stimullaşdırılması” haqqında Azərbaycan Respublikasının Qanunu və digər hüquqi aktlar aqrar sahədə sahibkarlığın inkişafına əlverişli iqtisadi mühit yaradır. Bununla yanaşı aqrar sferada tətbiq olunan maliyyə-kredit mexanizmi daim təkmilləşdirilir. Nəticəsində kənddə sosial infrastruktur yeniləşir, əhalinin yaşayış şəraiti daha da yaxşılaşır. Bütövlükdə aqrar sahibkarlığın inkişafı üzrə maliyyə öhdəliyini dövlət tamamilə öz üzərinə götürmür. Lakin, bölgələrdə regional inkişaf proqramları dövlət dəstəyi ilə icra edilir.

Respublikamızda iqtisadi siyasət əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına və kənd əhalisinin maddi rifahinin yüksəldilməsinə, aqrar sahibkarlığın inkişaf etdirilməsinə, kənddə biznes şəraitinin yaxşılaşdırılmasına, aqrar istehsalın müdafiə potensialının və ərzaq təhlükəsizliyinin gücləndirilməsinə, emal təmayüllü infrastrukturların yaradılmasına və genişləndirilməsinə, aqrar sahibkarlıqda dövlət proqramları üzrə maliyyə-kredit mexanizminin təkmilləşdirilməsinə, bu sahədə təşkilatı-iqtisadi problemlərin həllinə yönəldilmişdir.

Aqrar sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi üzrə iri fermer təsərrüfatlarının yaradılması prosesi uğurla davam edir. Meliorativ tədbirlərin həyata keçirilməsi nəticəsində minlərlə hektar əkin sahələri dövriyyəyə buraxılır, yeni iş yerləri, yeni istehsal sahələri yaranır, bölgələrdə böyük canlanma müşahidə olunur. Bunların davamı olaraq aqrar sahibkarlıq ümumilikdə makroiqtisadi inkişafın əsas hədəf strateqiyasına xidmət etməklə ərzaq təhlükəsizliyinin

təmin olunmasına şərait yaratmalıdır. Aqrar sahibkarlıq fəaliyyəti həm də sənayenin digər sahələrinin kənd təsərrüfatı xammalı ilə təminatında əsas və başlıca yer tutur. Bazar iqtisadiyyatında aqrar sahibkarlıqda maliyyə-kredit mexanizmi müxtəlif təsərrüfatçılıq subyektlərinin rəqabət mühitini sağlamlaşdırır, kənd təsərrüfatının həm dayanıqlı, həm də davamlı inkişafını təmin edir. Elə buna görə də aqrar sahibkarlıqda maliyyə-kredit mexanizmin tənzimlənməsi zərurəti yaranır. Aqrar sahibkarlığın inkişafının əsas istiqamətləri ilə birgə maliyyə-kredit mexanizminin təkmilləşdirilməsinin təşkilati-iqtisadi problemlərinin birgə tədqiqi zərurətə çevrilir.

Bu baxımdan aqrar sahibkarlıq mühitində maliyyə-kredit mexanizi ətraflı səciyyələndirilməli, onun təkmilləşdirilməsinin təşkilati-iqtiadi məsələləri araşdırılmalıdır. Sahibkarlıq fəaliyyəti bilavasitə maliyyə imkanları ilə əlaqədar olduğuna görə aqrar sahibkarlığın təşəkkülü və inkişafının maliyyə-kredit mexanizminin təkmilləşdirilməsinin təşkilati-iqtisadi problemlərinə həsr olunmuş dissertasiya  mövzusu actual olub, praktiki əhəmiyyət kəsb edir.

**Problemin öyrənilmə vəziyyəti.** Aqrar sahədə sahibkarlığın formalaşması və inkişafında maliyyə-kredit mexanizminə dair respublikanın iqtisadçı alimlərinin tədqiqatları, onların nəticələri problemin mövcud vəziyyətini xarakterizə edir. Aqrar sahədə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, mövcud maliyyə-kredit mexanizmi, onun təkmilləşdirilməsinin təşkilati-iqtisadi problemləri və nəzəri-metodoloji məsələləri Z.Ə.Səmədzadə, E.A.Quliyev, A.K.Ələsgərov, B.X.Ataşov, G.Ə.Gənciyev, A.T.Əhmədov, A.F.Abbasov, Ə.Ç.Verdiyev, H.Ə.Qasımov, İ.Ş.Qarayev, İ.H.Aliyev, İ.V.Əhmədov, M.M.Sadıqov, R.Ə.Balayev, İ.H.İbrahimov, S.V.Salahov, V.M.Niftullayev, V. Abbasov və bir çox başqa alimlərimiz, həmçinin D.Berdjes, Q.İ.Ruzavin, N.Q.Menkyu, R.Damark V.M.Vlasova, və xarici ölkələrin digər iqdisadçı alimləri tərəfindən tədqiq olunmuşdur.

Respublikamızın iqtisadçı alimlərinin ümumilikdə aqrar sahibkarlığın formalaşması və inkişafına dair elmi-tədqiqat işləri və araşdırmaları yüksək qiymətləndirilir. Bununla bərabər aqrar sahibkarlığın inkişafında maliyyə-kredit mexanizminin  müasir  dövrün  tələblərinə uyğunlaşdırılması məsələləri, resurslardan istifadənin təşkilati-iqtisadi və digər əlaqəli məsələləri kompleks tədqiqinə zərurət yaranmışdır. Aqrar sahibkarlığın inkişafında yeni maliyyə mənbəələrinin, kredit resurslarının, yeni aqrar texnologiyaların, istehsalın intensivləşdirilməsinin, sahənin informasiya təminatının təkmilləşdirilməsi məsələləri  də hələ kifayət qədər tədqiq olunmamışdır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi aqrar sahədə sahibkarlığın təşəkkülü prosesini tədqiq edib, aqrar sahibkarlıq subyektlərinin inkişafının maliyyə problemlərinin həlli yollarını aşkar etmək və onların reallaşdırılması istiqamətlərini müəyyən ləşdirməkdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı  vəzifələr qarşıya qoyulmuş və həll edilmişdir:

- Aqrar sahibkarlığın formalaşması və onun inkişafının elmi əsaslarının və metodoloji müddəalarının əsaslandırılması;

- Aqrar sahibkarlığın inkişafında maliyyə mexanizminin rolunun müəyyənləşdirilməsi;

- Aqrar bazarın müdafiəsi üçün real vasitələrin qiymətləndirilməsi;

- Aqrar sahədə kredit resurslarından istifadədə qiymət mexanizminin rolunun müəyyənləşdirilməsi;

- Aqrar sahibkarlığın formalaşması vəziyyətinin təhlili və inkişafı yollarının aşkarlanması;

- Aqrar sahibkarlıqda iqtisadi inkişaf potensialının reallaşdırılması üçün maliyyə-kredit mexanizminin təşkilati-iqtisadi probleminin həlli yollarının müəyyənləşdirilməsi.

**Tədqiqatın obyekti** Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalını və emalını həyata keçirən aqrar sahibkarlıq qurumlarıdır.

**Tədqiqatın predmeti** yeni iqtisadi şəraitdə aqrar sahibkarlığın inkişafı qanunauyğunluqları və istiqamətləri, həmçinin maliyyə-kredit mexanizminin təşkilati-iqtisadi problemlərinin həll edilməsidir.

**Tədqiqat işinin nəzəri və metodoloji əsaslarını** Azərbaycan Respublikasının və xarici ölkələrin iqtisadçı alimlərinin aqrar sahibkarlığın təşəkkülü və inkişafı istiqamətləri üzrə aktual problemlərə həsr edilmiş elmi əsərləri, ölkə üzrə qanunvericilik orqanlarının qərarları və normativ sənədləri təşkil edir. Aqrar sferada aparılan islahatlar, bu sahədə olan mülkiyyət mənsubiyyətinin müxtəlifliyi, müvafiq sferada azad sahibkarlıq prinsipləri, kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyini əks etdirən əsas müddəalar tədqiqatın metodoloji əsası kimi qəbul edilə bilər.

Dissertasiya işində iqtisadi təhlil, balans, analitik, statistik, monoqrafik və digər metodlardan istifadə olunmuşdur.

Tədqiqatın informasiya bazası dissertasiya işində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Kənd Təsərrüfatı Nazirliyiin, İqtisadiyyat Nazirliyinin, digər nazirliklərin, komitələrin məlumatlarından, eləcə də aqrar-sənaye qurumlarının və müvafiq elmi-tədqiqat institutlarının normativ və texnoloji sənədlərindən, dövrü mətbuat materiallarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- Aqrar sahibkarlığın inkişafının maliyyə-kredit mexanizmiləri və istehsalın səmərəliliyini şərtləndirən əsas amillər kompleks tədqiq olunmuş və sistemləşdirilmişdir;
- Azərbaycan Respublikasının regionları üzrə aqrar sahibkarlığın ərazi xüsusiyyətləri, resurs potensialı və inkişafı imkanları qiymətləndirilmişdir;
- Aqrar sahədə sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi və aqrar istehsalın səmərəliliyinin yüksəldilməsi istiqamətləri əsaslandırılmışdır;

• Aqrar sahəyə maliyyə yardımlarının məqsədyönlü təşkili və onun təkmilləşdirilməsinin metodoloji əsasları işlənib hazırlanmışdır.

• Sahibkarlara kompleks marketinq xidmətinin göstərilməsi, aqrolizinq və aqroservis xidmətlərindən istifadə imkanları araşdırılmış, aqrokonsaltinq mərkəzinin yaradılması əsasında vahid informasiya təminatı sisteminin təkmilləşdirilməsinə dair tövsiyyə və təkliflər verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində elmi cəhətdən əsaslandırılmış müddəalar respublikanın kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin sürətlə inkişafına kömək göstərə bilər.

Dissertasiya irəli sürülən nəzəri-metodoloji ümumiləşdirmələrdən və təkliflərdən Azərbaycan dövlətinin kənd təsərrüfatına dair yeni proqramların hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə olunaması.** Tədqiqat işinin əsas müddəaları və əldə edilən nəticələr Azərbaycan Kooperasiya Universitetində keçirilən beynəlxalq elmi-praktiki konfransın materiallarında (Bakı, 2012), "Aqrar sahibkarlıq fəaliyyətində maliyyə təminatının yaxşılaşdırılmasında kredit təşkilatlarının rolu (Bakı, 2013), "Aqrar sənaye sistemində maliyyə təminatının təkmilləşdirilməsi və qiymətləndirmə məsələləri" (Bakı, 2014) və digər elmi məqalələrdə öz əksini tapmışdır.

Tədqiqatın nəticələri üzrə təklif və tövsiyyələr Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm Mərkəzi tərəfindən müsbət qiymətləndirilmiş və ıstifadə üçün qəbul oluinmuşdur (arayış № 31/13-122,18 mart 2015-ci il).

**Tədqiqat nəticəsində ümumi həcmi** 4,2 çap vərəqi olan 8 elmi məqalədə və tezislər dərc edilmişdir.

**İşin quruluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil və nəticədən ibarət olmaqla, istifadə edilmiş ədəbiyyat siyahısı ilə birlikdə kompüter yazısı ilə 53 səhifəni əhatə edir. Burada 19 cədvəli və 4 qrafiki verilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti, nəzəri metodoloji əsasları, informasiya bazası, tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti şərh edilir. Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə edilməsi barədə məlumat verilir.

Dissertasiya işinin birinci fəsli "**Aqrar sahədə sahibkarlığın formalaşmasının və inkişafının nəzəri- təcrübi məsələləri" adlanır.** Bu fəsil aqrar sahibkarlığın təşəkkülü və inkişafının elmi-metodoloji məsələlərinə, aqrar sahibkarlığın inkişafı amilləri və qanunauyğunluqlarına, aqrar sahədə maliyyə təminatlığı və qiymətlərin tənzimlənməsinin beynəlxalq təcrübəsi məsələlərinə həsr edilmişdir.

Aqrar sahənin müvəffəqiyyətli inkişafı, həmçinin kənd təsərrüfatı əmtəə istehsalçıları ilə dövlətin və emal müəssələrinin qarşılıqlı münasibətlərində paritetliyin təmin edilməsi öyrənilmişdir və elmi cəhətdən əsaslandırılmışdır.

Aqrar sferada sahibkarlıq fəaliyyətinin rəqabət qabiliyyətinin artırılması və rentabelliyinin təmin olunması üçün bu sahibkarlıq sektoruna dövlət tərəfindən maliyyə dəstəyinin göstərilməsi və mövcud kredit mexanizminin işgüzarlıq mühitinin tələblərinə uyğunlaşdırılması təmin olunmalıdır.

Digər sahələrdə olduğu kimi, aqrar sahədə də bazar iqtisadiyyatının əsas subyekti kimi daim yüksək mənfəət əldə etməyə çalışır. Bu da mövcud olan iqtisadi resurslardan maksimum səmərəli istifadə edərək yüksək keyfiyyətli məhsul istehsalına nail olmaq, aqrar bazarın yüksək rəqabəti qarşısında böyük miqdarda məhsul təklifini formalaşdırmaq imkanlarının reallaşdırılmasıdır.

Dövlət aqrar sahibkarlıq fəaliyyətinin tənzimlənməsini sürətləndirməlidir. Qeyd edilən təcrübə artıq bir çox inkişaf etmiş ölkələrdə reallaşdırılmışdır. Dövlətin tarazlıq vəziyyətini dəyişməklə apardığı iqtisadi tədbirlər mövcud iqtisadi və sosial problemləri aradan qaldırır. Aqrar sahədə formalaşan tarazlıq qiymətləri istehsalçı sahibkarların mənfəətlə işləməsini təmin etməklə yanaşı istehlakçıların tələblərinin tam ödənilməsi amilinə çevrilir.

Hazırda məhsul istehsalçıları ilə emal sənayesi subyektləri arasında iqtisadi əlaqələr zəif qurulmuşdur. Hələ də emal müəssisələrində istehsal güclərinin çatışmazlığı problemi qalmaqdadır. Bu isə öz növbəsində ərzaq təminatında problemlər yaradır və ölkənin ərzaq təhlükəsizliyini maneçilik törədir.

Bir faktı da qeyd etməliyik ki,aqrar sahibkarlığın inkişafı bir tərəfdən daxili bazarın tələbatının daha dolğun ödənilməsini təmin etdiyi halda,digər tərəfdən daxili bazarın qorunması üzrə dövlət tədbirəri aqrar sahibkarlar üçün geniş imkanlar açır.

Aqrar sahədə kooperasiyalaşma sahibkarlıq fəaliyyətinin səmərəliliyini artıran strateji istiqamətlərdən biridir. Koopersiyalaşma resurslardan birgə istifadə edilməsində potensial imkanların aşkar olunmasına və onların reallaşdırılmasına imkan verir.

Aqrar sahibkarlığın inkişafının əsas məqsədi aqrar iqtisadiyyatın rəqabət qabiliyyətinin və diversifikasiyası səviyyəsinin yüksəldilməsi, ölkənin ərzaq təminatı potensialının gücləndirilməsi, respublika əhalisinin ərzaq təhlükəsizliyinin təmin olunması, regionların sosialiqtisadi inkişafının sürətləndirilməsi, aqrar istehsalçıların xarici bazarlarda mövqe tutması və onun möhkəmləndirilməsi, sahibkarların iqtisadi maraqlarının təmin olunması, təbii resurslardan və iqtisadi potensialdan səmərəli istifadə edilməsi kimi hədəflərə nail olunmasıdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: “Azərbaycan Respublikasının böyük potensialı var və bu iqtisadi potensialdan səmərəli istifadə etmək bizim vəzifəmizdir”. Bu, respublikamızın aqrar sahəsinə da aiddir.

Respublikamızda aqrar iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsində başlıca strateji istiqamət daxili tələbatın ödənilməsi üçün idxalı əvəzetmə siyasətinin yeridilməsidir. Bu siyasətin əsas mahiyyəti ondan ibarətdir ki, kənd təsərrüfatı məhsullarının idxalına yönəldilən valyuta ehtiyatlarına qənaət olunur və qənaət olunan valyutaya isə öz növbəsində texnika, texnologiya alınaraq yerli istehsala tətbiq olunur. Aqrar sahibkarlıq fəaliyyətində əsas diqqət respublika ərazisinin mövcud təbiətinin bəxş etdiyi zəngin təbii sərvətlərdən və ucuz işçi qüvvəsindən səmərəli istifadənin təmin olunmasıdır. Respublikanın ayrı-ayrı reqionlarında müxtəlif kənd təsərrüfatı məhsullarının becərilməsi üçün daha əlverişli şərait vardır.

Aqrar sahibkarlıq fəaliyyətində bu müsbət qiymətləndirilməli və istehsal fəaliyyətinin mənfəətli nəticəsini təmin etməlidir.

Aqrar sahədə sahibkarlığın təkmilləşdirilməsi əmtəələrin istehsalı və xidmətlərin göstərilməsi üçün əlverişli şərait yaradır. Bu da öz növbəsində məhsuldarlığın yüksəlməsinə, ölkənin rəqabətə davamlılığının artmasına təsir edən əsas amil kimi xarakterizə olunur.

Azərbaycan dövləti üçün bu gün başlıca məqsədlərdən biri milli iqtisadiyyatın neftdən asılılığını aradan qaldırmaqdır. Kənd təsərrüfatı iqtisadiyyatda neft və tikinti sahələrindən sonra üçüncü ən iri sahədir və əhalini iş yerləri ilə təminatında mühüm yer tutur. Bu səbəbdən də aqrar sahibkarlığın inkişaf etdirilməsi iqtisadi zərurətdən yaranır.

Azərbaycan Respublikasının təbii-iqlim şəraiti yüksək keyfiyyətli kənd təsərrüfatı məhsulları istehsal etməyə imkan verməklə, ölkə əhalisinin ərzağa olan tələbini daxili istehsal hesabına təmin etməyə əsas verir. Digər sahibkarlıq subyektlərində olduğu kimi, aqrar sahibkarlıq fəaliyyətinə də daim maliyyə yardımı həyata keçirilməlidir.

Aqrar sahibkarlığı inkişaf etdirmək üçün xarici investisiyaların cəlb olunması, xarici ölkələrin maliyyə-kredit təşkilatları ilə əməkdaşlıq əlaqələrinin qurulması, idxal olunan kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq üçün kiçik və orta aqrar sahibkarlıq subyektlərinə maliyyə yardımlarının edilməsi məqsədəuyğundur. Bu məqsədlə dövlət tərəfindən kredit resursları ilə təmin olunan, kənd təsərrüfatı müəssisələrinə və fermerlərə güzəştli şərtlərlə kredit verə biləcək ixtisaslaşmış aqrobankların yaradılması məqsədəuyğundur.

Müxtəlif ölkələrdə həyata keçirilən daxili və xarici ticarət siyasəti kənd təsərrüfatı məhsullarının qiymətlərinə əhəmiyyətli təsir göstərir. Bu zaman əldə olunan gəlirlərin bölüşdürülməsi üzrə differensiallıq əksər hallarda yerli istehsalçıların narazılığına səbəb olur. Bu da əldə olunan valyuta gəlirlərindən onların payına düşən hissənin azlığı ilə şərtlənə bilər. Belə yanaşma həm də onların maliyyə-təsərrüfat fəaliyyətinə öz təsirini göstərir. Bu təsir dərəcəsini qiymətləndirmək üçün nominal müdafiə əmsalı (NMƏ) hesablanmalıdır:

$$NMƏ = \frac{Pd}{Px} \qquad (1)$$

burada, $Pd$ - məhsulun daxili bazar qiyməti;

$Px$ - məhsulun xarici bazar qiymətidir

Nominal müdafiə əmsalının $NMƏ > 1$ olması o deməkdir ki, hökümət ayrı-ayrı məhsul üzrə milli istehsalçıları qiymət siyasəti ilə müdafiə edir. Məsələn, NMƏ-nın 1,8-ə bərabər olması məhsulun daxili bazar qiymətlərinin onun dünya bazar qiymətlərindən 1,8 dəfə yüksək olması anlamına gəlir. Bu həm də məhsul istehsalçısı olan ölkənin öz fermerlərini müdafiə etməsi, müvafiq məhsulların xarici ticarətində müxtəlif maneə və məhdudiyyərlərin tətbiqi göstəricisidir.

$NMƏ > 1$ olması tamamilə əks vəziyyəti səciyyələndirir. Başqa sözlə bu vəziyyət daxili qiymətlərin dünya bazar qiymətlərindən aşağı olmasını və xarici ticarət sahəsində əsaslı yaxud təsirli tənzimləmə tədbirləri həyata keçirilməsini əks etdirir.

Müvafiq tənzimləmə tədbirlərinə, daha dəqiq desək nominal müdafiə əmsalına istinad edərək xarici ölkələrdə yerli istehsalçıların maliyyə vəziyyətinin sabitliyinin təmin edilməsi istiqamətlərinə nəzər salaq. Misirdə pambıq istehsalı üzrə nominal müdafiə əmsalı 0,5-ə bərabərdir Bu o deməkdir ki,aparılan iqtisadi ticarət siyasətinin nəticəsi olaraq yerli istehsalçılar öz məhsullarını dünya bazarına nisbətən 2 dəfə aşağı qiymətlərlə satırlar. Yekun nəticə və qənaət ondan ibarətdir ki, ölkənin iqtisadi inkişaf səviyyəsi yerli kənd təsərrüfatı məhsulları istehsalçıları xarici ticarət sahəsində görülən tədbirlərin təsir gücü nə qədər yüksək olarsa o qədər güclü himayə olunur. Şübhəsiz ki,bu da nominal müdafiə əmsalının hesablanması və tətbiqinin praktiki əhəmiyyətini artırır.

Bir çox inkişaf etmiş ölkələr yerli istehsalçılara daha çox subsidiyalar verməklə, daxili bazarda qiymətlərin müdafiəsi üçün müxtəlif formalardan istifadə edirlər. Dövlətin kənd təsərrüfat məhsulları ilə ticarətə müdaxiləsi bəzən müəyyən problemlər də yarada bilər. Bu problemlərin aşağıdakı kimi sistemləşdirmək olar:

- ✓ Ayrı-ayrı dövlətlərdə fermerlər və kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olmayan əhali arasında gəlirlərin fermerlərin xeyrinə bölüşdürülməsi.
- ✓ Dövlət ehtiyyatlarında yüksək miqdarda məhsul ehtiyatlarının saxlanılması. Bu məhsulları xarici bazarda daha aşağı qiymətə satmaq olur. Məsələn, taxılın əsas ixracatçıları olan ABŞ və Kanada tərəfindən artıq məhsulun dünya bazarına çıxarılması onun qiymətinin azalmasına səbəb olur. Qərbi Afrika və Şərqi Asiya ölkələri isə daha aşağı qiymətlə taxılın alışında qazanırlar. Bundan əlavə onlar subsidiyaların azaldılmasını ixracatçı dövlətlərin vergi ödəyiciləri hesabına konpensasiya edirlər.

✓ İnkişaf etmiş ölkələrdə yerli istehsalçılara kifayət qədər güzəştlər və subsidiyaların verilməsi çevrilən əmtəələrin yaranmasına səbəb olur. Başqa sözlə, əmtəələr idxal olunan əmtəələrdən ixrac olunan əmtəələrə çevrilirlər.

✓ İqtisadi ittifaqa üzv olan ölkələr arasında gəlirlərin bölüşdürilməsi. Böyük Britaniya, Fransa və Almaniya kimi ölkələrdə qiymətin yüksək səviyyəsinə görə artıq istehsal subsidiyalaşdırılır.

Avropa Birliyi ölkələrində kənd təsərrüfatı məhsullarının qiymətlərinin tənzimlənməsinin özünəməxsus sistemi tətbiq olunur. Bazar qiymətəmələgəlməsi mexanizmi müxtəlif qiymət növlərindən istifadənin tətbiqi ilə müşaiyət olunur. Hər bir məhsul üzrə tətbiq olunacaq qiymət növlərinin seçilməsi ilin əvvəlindən həyata keçirilir. Bu məsələnin uğurlu həlli ərzağın qiymət dinamikasına və milli kənd təsərrüfatı istehsalçılarının gəlirlərinin formalaşmasına əhəmiyyətli təsir göstərir.

İnkişaf etmiş ölkələrdə isə fermerlər idxal rəqabətindən ardıcıl olaraq müdafiə olunurlar və istehlakçıların hesabına öz məhsullarını dünya qiymətindən baha qiymətə satırlar.

Hər bir ölkədə ixracatla məşğul olan fermerlər daha yüksək məbləğdə vergi ödəməklə daha az müdafiə olunurlar. Lakin, idxalatla rəqabət aparan fermerlər daha çox müdafiə olunurlar. Bu həm də yerli istehsalçıların gəlirlərinin səviyyə və quruluşunu, maliyyə təminatlığını müəyyən edən amildir.

**“Respublikada aqrar sahibkarlığın inkişafının maliyyə təminatlığı səviyyəsinin təhlili”** adlanan ikinci fəsildə Azərbaycanda aqrar sahibkarlığın dayanıqlı inkişafına əlverişli şəraitin yaradılması və bununla da aqrar sahibkarlığın ölkə iqtisadiyyatının inkişafında əhəmiyyətli rol oynaması qiymətləndirilmişdir və aqrar sahibkarlığın inkişaf dinamikası araşdırılmışdır.

Respublikada digər ölkələrdə olduğu kimi aqrar sahənin davamlı və dayanıqlı inkişafını təmin etmək üçün ən əsas məsələlərdən biri aqrar sahibkarlığın maliyyə - kredit mexanizminin təkmilləşdirilməsi və bu əsasdan da maliyyə təminatının möhkəmləndirilməsidir.

Kənd təsərrüfatı istehsalçılarına verilən maliyyə yardımları onların məhsul satışınının rentabelliyinə əhəmiyyətli təsir göstərir.

Cədvəlin məlumatlarından aydın olur ki,bitkiçilik üzrə rentabellik səviyyəsinin azalması müşahidə olunmuşdur. 2014-cü ildə 2013-cü ilə nisbətən rentabellik səviyyəsi 5,8% azalmışdır. Heyvandarlıqda isə rentabellik səviyyəsi 12,9% azalmışdır. Bu isə aqrar sahibkarlığın maliyyə təminatının yaxşılaşdırılmasına maneə yaradır.

Dövlət tərəfindən aqrar sahəyə maliyyə yardımı mütamadi olaraq artırılır. Kənd təsərrüfatı istehsalçılarına güzəştli kreditlərin verilməsi, onlara maliyyə dəstəyinin göstərilməsi, büdcə hesabına əkinlərin güzəştli sığortasınının tətbiqi, taxıl qəbulu müəssisələrinə məhsulun daşınması üzrə dəmir yolu tariflərinin kompensasiyası, yanacaq və elektrik enerjisinin verilməsi üzrə xüsusi tariflərinin müəyyənləşdirilməsi məsələləri ardıcıl olaraq həll edilməkdədir.

Aqrar sahədə həm də fərdi sahibkarlıq təsərrüfatlarına maliyyə dəstəyi göstərilmişdir. Bu da həmin təsərrüfatların istehsal etdikləri kənd təsərrüfatı məhsullarının bir sentnerinin maya dəyərinin azalmasına şərait yaradaraq mənfəətliyin yüksəlməsinə imkan vermişdir.

Cədvəl 1.

Kənd təsərrüfatı məhsulları satışının rentabelliyi (% - lə)

| Göstəricilərin adı | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|
| Dənli bitkilər | 39,8 | 42,9 | 47,6 | 50,2 | 41,0 |
| Xam pambıq | 7,5 | -12 | 12,8 | - | 43,6 |
| Şəkər çuğunduru (emal üçün) | 51,8 | 139,6 | 154,2 | 83,3 | 135,4 |
| Tütün | 50 | 41,6 | 22,8 | 68,3 | 180,2 |
| Yaşıl çay yarpağı | 3,4 | 9,5 | 8,7 | 2,4 | 3,3 |
| Kartof | 52,5 | 15,6 | 22,5 | 4,4 | 26,2 |
| Tərəvəz (açıq torpaqda) | 40,9 | 6,8 | 41,3 | 84,8 | 94,3 |
| Bostan məhsulları | 43,4 | 48,3 | 44 | 41,7 | 38,1 |
| Meyvə və giləmeyvə | 11,3 | 14,3 | 29,5 | 4,0 | 15,8 |
| Üzüm | 22,4 | -3,8 | 6,9 | 14,3 | 30,8 |
| Bitkiçilik məhsulları üzrə | 30 | 24,1 | 35,5 | 35,1 | 29,3 |
| Mal qara və quş əti, cəmi | 10,9 | 25,7 | 20,9 | 12,3 | 10,8 |
| Heyvandarlıq məhsulları üzrə | 10,5 | 20,5 | 15,1 | 16,5 | 9,4 |
| Bütövlükdə məhsul satışın üzrə | 13,4 | 19,7 | 17,7 | 16,5 | 16,0 |

Azərbaycanda aqrar sahibkarlığın inkişafı sahəsində böyük imkanlar mövcuddur. Həm bitkiçilik, həm də heyvandarlıq sahəsində daxili və xarici investisiya imkanları böyükdür. Aqrar sahibkarlıqda heyvandarlıq sahəsinin inkişaf etdirilməsi əsasən ölkənin tələbatının ödənilməsinin idxalın əvəz edilməsi hesabına təmin ediləcəkdir. Belə ki, 2014-cü ildə idxalın həcmi ölkədə 25419 ton olmaqla istifadə olunan ətin 7,8%-nə bərabər olmuşdur. Ət istehsalını daxili bazar hesabına 14,5%, artırmaq mümkündür. Bu baxımdan ölkədə həm ət, həm də süd istehsalının artırılması ilə daxili tələbatın tam, fasiləsiz ödənilməsi üçün cins ətlik və cins südlük heyvandarlıq komplekslərinin yaradılmasına ehtiyac vardır.

“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə social-iqtisadi inkişafı Dövlət proqramı” regionlarda aqrar sahibkarlığın inkişafının iqtisadiyyatın digər sahələri ilə tarazlığının təmin edilməsi, regionlarada əhalinin sosial rifahı və həyat səviyyəsinin daha da yüksəldilməsi, ölkə iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun dinamik inkişafına yönəlmiş tədbirlərin əlaqəli şəkildə həyata keçirilməsi dövlət əhəmiyyətli mühüm məsələlər kimi qiymətləndirilə bilər. Bu proqrama görə ölkədə bütün iqtisadi rayonlar üzrə aqrar sahibkarlığın inkişafının təşkilati-iqtisadi mexanizmi müəyyən olunmuşdur. Bu da kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin maliyyə nəticələrində özünü büruzə verir.

Cədvəl məlumatlarının təhlili göstərir ki, ziyanla işləyən kənd təsərrüfatı müəssisələrinin sayı 2014-cü ildə 2013-cü ilə nisbətən 45 vahid artmışdır. Lakin bunun əksinə olaraq ümumi gəlir (faktiki qiymətlərlə) 10820 min manat, balans gəliri isə 6745 min manat artmışdır. Kənd təsərrüfatı məhsullarının, iş və xidmətlərinin satışından əldə olunan gəlir 2014-cü ildə 2013-cü ilə nisbətən 8122 min manat artmışdır.

Cədvəl 2.

Azərbaycan Respublikasının kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin maliyyə nəticələri

| Əsas iqtisadi göstəricilər | İllər | | | | |
|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
| təsərrüfatların sayı, vahid | 2043 | 1917 | 1774 | 1669 | 1701 |
| ondan: ziyanla işləyənlər | 174 | 156 | 109 | 79 | 124 |
| faizlə | 8,5 | 8,1 | 6,1 | 4,7 | 7,3 |
| ümumi gəlir (faktiki qiymətlərlə) min manat | 71604 | 71623 | 86045 | 91903 | 102723 |
| balans gəliri, min manat | 27658 | 36920 | 48200 | 52283 | 59028 |
| bütün maliyyə - təsərrüfat üzrə rentabellik, % | 16,7 | 21,3 | 19,2 | 18,3 | 17,0 |
| kənd təsərrüfatı məhsullarının, iş və xidmətlərin satışından əldə edilən gəlir, min manat | 22286 | 34209 | 44252 | 47259 | 55381 |
| kənd təsərrüfatı məhsullarının, iş və xidmətlərin rentabelliyi,% | 13,4 | 19,7 | 17,7 | 16,5 | 16,0 |

Aqrar sahədə sahibkarlıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi və onun spesifik xüsusiyyətləri əsasında müəyyənləşdirilməsi zərurəti yaranır. Aqrar sahibkarlığın mövcud vəziyyətinin araşdırılması və səmərəliliyinin qiymətləndirilməsi üçün istehsal olunan məhsulun maya dəyəri, satış qiyməti, mənfəət və rentabellik səviyyəsi kimi göstəricilər təhlilə cəlb edilməlidir. Kənd təsərrüfatı istehsalının səmərəliliyinin xüsusilə məhsulun maya dəyərinin miqyasından asılılığı fərdi sahibkarlıq subyektlərinin fəaliyyətinə ciddi təsir edir.

Cədvəl məlumatlarının təhlili göstərir ki, dənli bitkilər üzrə satış qiymətlərinin maye dəyərinə nisbəti 2013-cü ildə 1,6-ya, 2014-cü ildə isə 1,3-ə bərabər olmuşdur. Təhlil dövründə xam pambıq üzrə həmin göstərici 0,8 və 0,6 kartof üzrə isə 1,1 və 1,2 olmuşdur. Bu o deməkdir ki, təhlil dövründə əsas növ kənd təsərrüfatı məhsullarının maya dəyərində ciddi azalma baş verməmişdir. Hələ də sahibkarların xərcləri yüksəkdir və bu onların maliyyə vəziyyətinə mənfi təsir göstərir.

Aqrar sahədə sahibkarlıq fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi üzrə yuxarıda təhlilə cəlb edilmiş göstəricilər bu təsərrüfatçılıq subyektlərinin aparıcı qüvvəyə çevrilmədiyini göstərir. Belə vəziyyət son illər həyata keçirilən sistemli dövlət himayəsi tədbirləri müqabilində müəyyən narahatlıq doğurur. Odur ki, yerlərdə aqrar sahibkarlığın, o cümlədən fərdi sahibkarlıq subyektlərinin fəallığının yüksəldilməsi üçün tədbirlər davam etdirilməlidir.

Cədvəl 3.

Fərdi sahibkar təsərrüfatlarında kənd təsərrüfatı məhsullarının maya dəyəri və satış qiymətinin dinamikası (manatla)

| Göstəricilər | 2012 | | 2013 | | 2014 | |
|---|---|---|---|---|---|---|
| | bir sentnerin maya dəyəri | satış qiyməti | bir sentnerin maya dəyəri | satış qiyməti | bir sentnerin maya dəyəri | satış qiyməti |
| Dənli bitkilər | 13,26 | 24,66 | 16,22 | 25,76 | 18,97 | 24,69 |
| Xam pambıq | 36,47 | 40,97 | 51,51 | 40,27 | 69,5 | 43,36 |
| Şəkər çuğunduru (emal üçün) | 2,5 | 6,35 | 2,79 | 5,18 | 2,2 | 5,27 |
| Tütün | 60,0 | 80,0 | 50,38 | 84,13 | 24,83 | 86,01 |
| Yaşıl çay yarpağı | 91,83 | 96,88 | 93,23 | 95,45 | 89,70 | 96,31 |
| Kartof | 28,66 | 28,6 | 21,15 | 23,52 | 24,78 | 30,67 |
| Tərəvəz (açıq torpaqda) | 9,21 | 15,69 | 11,20 | 23,66 | 14,22 | 30,27 |
| Bostan məhsulları | 8,41 | 13,79 | 8,81 | 14,29 | 9,21 | 13,07 |
| Meyvə və giləmeyvə | 35,28 | 38,27 | 24,24 | 32,05 | 31,38 | 45,62 |
| Üzüm | 34,63 | 38,45 | 28,89 | 40,19 | 29,75 | 40,71 |
| Süd və süd məhsulları | 33,80 | 46,39 | 36,45 | 52,30 | 35,21 | 47,40 |
| Yun | 116,99 | 137,33 | 112,17 | 142,70 | 115,40 | 147,79 |
| Yumurta (min ədədlə) | 71,12 | 75,54 | 69,71 | 78,0 | 69,16 | 77,63 |

Fərdi sahibkar təsərrüfatlarında satılan bitkiçilik məhsullarının rentabellik səviyyəsi müxtəlif iqtisadi rayonlarda fərqli dinamikaya malikdir. Bu vəziyyət, əhəmiyyətli dərəcədə enerji daşıyıcılarının qiymətinin yüksəlməsi və qismən digər satın alınan resursların bahalaşması ilə əlaqədardır.

Aqrar istehsalin səmərəliliyini müəyyən edən amillər arasında ixtisaslaşma və təmərküzləşmə xüsusi yer tutur. Kənd təsərrüfatı istehsalının səmərəli yerləşdirilməsi və ixtisaslaşdırılması məsələlərinə aqrar sahibkarlığın inkişafı prioritetləri müstəvisində baxılması məqsədəuyğundur. İxtisaslaşma aqrar sahibkarlığın iqtisadi, ekoloji və sosial səmərəliliyinin yüksəldilməsinə yönəldilməlidir.

Aqrar sahədə ixtisaslaşmanın xarakteri, aqrar sahibkarların fəaliyyət növlərini seçməsi mühiti dövlətin aqrar sahəni tənzimləmə sistemindən bilavasitə asılıdır. Bu asılılıq aqrar sahənin inkişafını şərtləndirən tədbirlərin daha güclü təsiri altında baş verir. Subsidiyalar, qiymət tənzimlənməsi, güzəştli kreditlər hesabına kənd təsərrüfatı sahəsininin inkişafının prioritetliyi, müvafiq sahədə ixtisaslaşmanı stimullaşdırmalı olur. Bu aqrar sahibkarlığın struktur potensialının artırılması vasitəsi kimi, miqyas səmərəsi hesabına xərclərin azaldılması xəttidir.

Kənd təsərrüfatında istehsalın təmərküzləşdirilməsi istehsalda gəlirlərin artırılması məqsədi ilə aparılır. Kənd təsərrüfatı məhsulları istehsalçılarının dövlət tərəfindən himayə edilməsi onların gəlirlərinin artırılmasına səbəb olur.

Müəssisənin maliyyə vəziyyəti onun fəaliyyətinin həm nəticəsi, həm də dövlətin qiymət, kredit, vergi və sosial siyasətində baş verən dəyişikliklərə uyğunlaşmaq bacarığı ilə əlaqədardır. Aqrar-sənaye sistemində sahibkarlığın müasir idarəetmə sistemi müəssisənin bütövlükdə tədiyyə qabiliyyətini və maliyyə imkanlarını itirməsini qabaqlamalı və strateji baxımdan müəssisənin mövcud olduğu bütün dövr ərzində kifayət qədər tədiyyə qabiliyyətinə malik olmasına imkan verən rəqabət üstünlüyünü təmin etməlidir.

Dissertasiyanın üçüncü fəsli “**Aqrar sahibkarlığın inkişafında maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi məsələləri**” adlanır. Burada, aqrar sahibkarlıq fəaliyyətində səmərəliliyin yüksəldilməsi üzrə maliyyə mexanizminin təkmilləşdirilməsi istiqamətləri şərh edilmişdir.

Aqrar sahibkarlığın maliyyə əsaslarının səciyyələndirilməsində əsas məsələ aqrar iqtisadiyyatda sahibkarlığı, xüsusilə onun inkiafının maliyyə aspektlərini əks etdirən göstəricilərin çoxluğu və tərkibcə müxtəlifliyidir.

Aqrar sahibkarlığın maliyyə təminatında perspektivli istiqamətlərin seçilməsi xüsusiyyətləri müxtəlif səviyyələrdə fərqli ola bilər. Bu baxımdan aqrar sahibkarın maliyyə imkanlarının aşağı olması amili əsas kimi qəbul edilməli, kreditləşmə prosesində bu amil nəzərə alınmalıdır. Aqrar sənaye sisteminin kompleks inkişafini təmin etmək üçün lizinq xidmətinin formalaşdırlması mütləqdir. Lizinq obyekti ödəniş qabiliyyətsizliyindən etibarlı qaydada sığorta edir. Lizinq şirkəti istənilən zaman öhdəliyin ödənilməsi üçün əmlakı geri almaq imkanına malik olur. Bu amil də özlüyündə aqrar sahədə sahibkarların kreditin lizinq formasından istifadə imkanlarını genişləndirir.

Aqrar sahibkarlığın xüsusiyyətlərini nəzərə alan səmərəli ərazi təşkili maliyyə problemlərinin mühüm amilidir. Azərbaycan Respublikasının aqrar-sənaye sistemində sahibkarlığın inkişafında qiymət mexanizmindən istifadənin təkmilləşdirilməsi məqsədilə aqrar sahibkarlıqda ilk növbədə texniki vasitələrdən istifadə məsələləri öz optimal həllini tapmalı, yerli xüsusiyyətlər nəzərə alınmaqla, müvafiq maliyyə mexanizmi işlənib hazırlanmalıdır.

İnkişaf etmiş ölkələrdə aqrar bazarın qorunması dövlət siyasətinin mühüm istiqamətidir.Tənzimlənən daxili bazarda sabitlik və bolluq sosial-iqtisadi in-

kişaf problemlərinin həllinin şərti və nəticəsi kimi çıxış edir. Daxili bazarda tarazlı inkişaf xeyli dərəcədə sahibkarlara əlverişli fəaliyyət yaratmaqla əldə edilir.

Aqrar sahibkarlığın tənzimləmə istiqaməti struktur siyasəti dövlətin məqsədyönlü iqtisadi strategiyasına əsaslanmaqla tamamlanmış və sistemli xarakter daşımalıdır. Bu prosesdə yüksək rəqabət qabiliyyətinə malik sahələrin stimullaşdırılması şərti ilə iqtisadi fəaliyyətin bütün növlərinə əlverişli şəraitin yaradılmasına xüsusi diqqət yetirilməlidir.

Ümumiyyətlə, aqrar bazarın qorunmasında dövlət siyasətinin əsas məqsədi uzunmüddətli perspektiv üçün istehsal olunan yerli əmtəələrin (iş və xidmətlərin) rəqabət qabliyyətinin daxili və xarici bazarda yüksəldilməsi, istehsalın strukturunda bazar tələbinə uyğun dəyişikliklərə şərait yaradılması, maddi-texniki təchizat və xidmət sferasında aqrar bazar əlaqələrinin səmərəliliyinin yüksəldilməsi, bu əlaqələrin inkişafına əlverişli zəmin yaradılması kimi çox mühüm məsələlərin həllindən ibarətdir. Bu məqsədə çatmaq imkanları faktiki olaraq orta və uzunmüddətli dövr üçün hazırlanmış optimal istehsal-satış strukturunun formalaşması tədbirləri, habelə optimal qiymət siyasətinin reallaşdırılması üçün dövlətin malik olduğu vasitə və mexanizmlərlə sıx bağlıdır. Dövlətin iqtisadi siyasətinin tərkibində aqrar bazarın qorunmasının aşağıdakı istiqamətləri vardır:

- bütün subyektlərin iqtisadi fəaliyyəti üçün ayrı-ayrı bazarlar səviyyəsində, o cümlədən həmin bazarları formalaşdıran sferalarda bərabər və normal rəqabət mühitinin yaradılması;
- həm makro səviyyədə, həm də mikro səviyyədə iqtisadi inkişafın stimullaşdırılması məqsədi ilə idxal-ixrac əməliyyatlarından və digər vasitələrdən geniş istifadə olunması;
- əmtəəlik məhsul istehsalı ilə məşğul olan bütün təsərrüfat formalarının fəaliyyətinin dəstəklənməsi (maliyyə, texniki, material resursları ilə təminat və s.) və onlar arasında inteqrasiyanın stimullaşdırılması.

Əmtəəlik məhsul istehsal edən, iş və xidmətlər təklif edən təsərrüfatlarda investisiya çatışmazlığı müşahidə olunduğu hallarda gəlirlərin əldə olunması və sahələr arasında bölgüsündə kəskin fərqlər yaranır, nəticə özünü istehsalda-təklifdə biruzə verdiyindən bazar tələbatının ödənilməsi baxımından problemlər yaranır.

Daxili aqrar bazarın qorunması və inteqrasiya prosesləri ilə sıx qarşılıqlı əlaqədə xarici, xüsusilə Avropa təcrübəsi öyrənilməli,ondan faydalanmaq variantları işlənilməlidir. Bir faktı da nəzərə almaq lazımdır ki, azad ticarətdən daha çox mənfəət əldə etməyə çalışan ölkələrin bu istiqamətdəki uğrları həmin ölkələrin iqtisadi qüdrəti ilə düz mütənasibdir.

Aqrar sahibkarlığın inkişafında maliyyə-kredit mexanizminin təkmilləşdirilməsinin təşkilati-iqtisadi problemlərinin həllində maliyyə intizamı mühüm

şərt hesab edilir. Kreditdən istifadə edən aqrar sahibkarlıq subyektləri digər məsələlərlə bərabər verilən kreditin və onun faizinin vaxtında qaytarılmasını təmin etməlidirlər.

Bazar iqtisadiyyatı münasibətləri əsasında inkişaf edən ölkələrdə kredit təşkilatlarının aqrar sahibkarlığın dəstəklənməsində artan fəallığı müşahidə olunur. Kənd təsərrüfatının inkişafı və kreditləşdirilməsi layihələrinin reallaşdırılması üçün Dünya Bankının təsis etdiyi "İcraçı Kredit Agentliyinin" aqrar sahəyə kredit ittifaqları xətti ilə vəsait ayırmaları artır.

Kənd təsərrüfatının riskli xarakteri, sahibkarlığın start vəziyyətində maliyyə vəziyyətinin arzu olunan səviyyədə olmaması, bankların aqrar sahəyə zəif marağı, burada çalışanların qarşılıqlı yardım birlikləri yaratması zərurətini ortaya qoymuşdur.

Aqrar sahibkarlıq fəaliyyətində alınmış kredit məbləği öz təyinatına uyğun olaraq istifadə olunmalı,üzvlər tərəfindən kreditin vaxtında geri qaytarılmasını təmin etməlidir.

Bu baxımdana aqrar sahibkarlığın inkişafında aşağıdakılar zərurət təşkil edir :

- Aqrar sahibkarın banka və ya hər hansı digər təşkilata borcu varsa, kredit üçün müraciət etməzdən əvvəl həmin borclar ödənilməlidir.
- İqtisadiyyatın aqrar sahəsində dövlət tənzimlənməsinin üstün cəhətləri bu sahədə sahibkarlığın kreditləşdirilməsində böyük əhəmiyyət daşıyır.
- Kənd təsərrüfatının iqtisadi rəqabət qabiliyyətinin səviyyəsi aşağı olması da sahənin kreditləşdirilməsinə öz təsirini göstərir.

Kənd təsərrüfatında kredit münasibətlərinin inkişaf etdirilməsi zərurəti əsasən məhsul istehsalı ilə onun satışı müddətlərinin bir-birinə uyğun gəlməməsi ilə əlaqədardır. Kənd təsərrüfatı məhsulları istehsalına çəkilən xərclərin son dövrlər artması, maliyyə ehtiyatlarının çatışmaması, kredit üçün ödəniş faizinin xeyli yüksək olması nəticəsində gübrə, zəhərli kimyəvi maddələrin tətbiqinin minimuma enməsi əksər sajhələr üzrə məhsul istehsalına çəkilən xərclərin əmtəəlik məhsul satışından daxil olan pul gəlirlərini üstələməsi ilə nəticələnmişdir.

Kənd təsərrüfatı istehsalı kreditsiz təsəvvür etmək çətindir. Kredit, kənd təsərrüfatı məhsulları istehsalı və satışının bütün mərhələlərini əhatə etməli, istehsal həcminin sabitləşdirilməsi, təsərrüfatların maliyyə vəziyyətinin sağlamlaşdırılmasına şərait yaratmalıdır.

Kənd təsərrüfatı məhsulları istehsalı təbii amillərlə daha çox əlaqədardır. Belə ki, respublikanın bu və ya digər bölgəsində ayrı-ayrı illərdə kənd təsərrüfatı üçün əlverişsiz hava şəraiti yaranır, bəzi hallarda isə təbii fəlakətlər baş verir. Belə vəziyyət kənd təsərrüfatı məhsulları həcminin azalmasına və ya bütövlükdə itirilməsinə, məhsul satışından vəsaitin azalmasına, təsərrüfat-maliyyə vəziyyətinin pisləşməsinə, bunlar isə öz növbəsində istehsalın gələcək inkişafına, xüsusilə kapital qoyuluşunun həyata keçirilməsinə öz mənfi təsirini

göstərir. Gözlənilməz hadisələrdən yaranan itkiləri ödəmək üçün xalis gəlirin müəyyən hissəsini ehtiyat (sığorta) fonduna ayırmağı məqsədəuyğun hesab edilir.

Aqrar sahibkarlıq fəaliyyətində xərclərin daim qabaqlayıcı artımı,əlverişli bazar infrastrukturlarının olmaması, istehlakçıların aşağı ödəniş qabiliyyətli tələbi, əlaqədar sahələrdə inhisarçılıq və s. amillər kəndli təsərrüfatlarını dövriyyə vəsaitinin çatışmamazlığı kimi çətin bir vəziyyətə salmışdır. Məhsul satışı ilə əlaqədar çətinliklər, yetərincə büdcə maliyyələşdirilməsinin olmaması və s.kənardan əlavə vəsait cəlb edilməsinə tələbatı daha da artırmışdır. Bütün bunlar rəqabət və bazar qanunlarına müvafiq malıyyə - kredit siyasəti yürüdülməsini tələb edir.

Aqrar sahibkarlıq fəaliyyətinin inkişafının maliyyə-kredit mexanizminin araşdırılması nəticəsində belə bir qənaətə gəlmək olar ki,ölkədə aqrar bölmənin mövcud maliyyə vəziyyəti xeyli çətindir və bu baxımdan məqsədyönlü aqrar- kredit sisteminin tətbiqi tələb olunur. Emal sənayesinin yenidən qurulması, yeni istehsal güclərinin istismara verilməsi bu müəssisələrin xammala olan ehtiyacının xeyli artmasına səbəb olacaq. Bu halda müəssisələrin xammala olan tələbatının ödənilməsi üçün ayrı - ayrı sahibkarlar kənd təsərrüfatının bu və ya digər sahələrinə investisiya qoyulmasında daha maraqlı olacaqlar.

Aqrar bölmənin kredit ehtiyaclarının ödənilməsində mövcud bank sistemi ilə yanaşı kəndli təsərrüfatlarının kredit kooperativlərinin yaradılması da böyük rol oynaya bilər. Kredit kooperativləri fəaliyyət göstərdiyi yüz ildən artıq bir dövr ərzində bir çox ölkələrdə maliyyə- kredit sistemində nüfuzlu sahəyə çevrilmişdir.

Aqrar sahədə təsərrüfatçılıq strukturlarının səmərəli fəaliyyətinin təmin olunması məqsədilə aqrar sahənin kreditləşdirilməsini aparan kommersiya banklarının dövlət tərəfindən subsidiyalaşdırılması mexanizminin hazırlanması və tətbiqinin reallaşdırılması məqsədəuyğun hesab edilir.

Bir çox inkişaf etmiş ölkələrdə kənd təsərrüfatının gəlirlərinin artırılması məqsədilə müxtəlif vasitələrdən istifadə edilir və kənd təsərrüfatı ilə sənaye məhsullarının qiymətləri arasında disparitet qiymətlərin aradan qaldınlmasına nail olunur.

Bazar iqtisadi münasibətləri şəraitində aqrar sahibkarların əmtəə istehsalı təsərrüfat fəaliyyətinə xüsusilə iqtisadi vasitələrlə, yəni dolayı vasitələrlə qiymət tənzimlənməsi tədbirlərindən də geniş şəkildə istifadə edilir. Dolayı tənzimlənmə vasitələri ilk növbədə iqtisadi metodlardan istifadə edilir. Bura vergiyə cəlb etmənin və vergiqoymanın tənzimlənməsini, gəlirlərin səviyyəsinin artınlmasma istiqamətlənmiş tədbirləri, kredit siyasətini, gömrük siyasətini, amortizasiya normalarının müəyyənləşdirilməsini, həmçinin pul tədavülünün tənzimlənməsini və digər tədbirləri aid etmək olar.Aqrar sahibkarlığın stimullaşdırılması üzrə kənd təsərrüfatı istehsalının maliyyələşdirilməsi son nəticədə

ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə, istehsal infrastrukturunun formalaşmasına və müasir tələblərə uyğunlaşdırılmasına şərait yaradır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, aqrar sahibkarlığa dövlət tərəfindən verilən maliyyə yardımı tədbirləri o halda səmərəli nəticələr verə bilər ki, bu proses kənd təsərrüfatı ilə qarşılıqlı əlaqəyə malik olan emal sənayesini də əhatə etsin. Bütövlükdə kənd təsərrüfatı, emal sənayesi və xidmət sektorlarında qiymət münasibətlərinin tənzimlənməsi,həmçinin,kənd təsərrüfatının texniki resurslarla təchizatının investiyalaşdırılması, toxumçuluğun yaradılması və inkişafı, damazlıq heyvandarlığın inkişafını təmin edəcək təsərrüfatların formalaşdırılması, elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsalda tətbiqinin stimullaşdırılması bütövlükdə dövlət tənzimlənməsinin prioritet istiqamətini təşkil etməlidir. Aqrar sahibkarlıqda kənd təsərrüfatı məhsullarının qiymətlərinin tənzimlənməsi kompleks tədbirlər sistemini əks etdirməlidir.

Kənd təsərrüfatı məhsullarının qiymətlərinin dövlət tənzimlənməsi sistemində aqrar sahibkarlığın maliyyə sağlamlaşdırılması həlledici rol oynayır. Dünyada inkişaf etmiş bir şox ölkələrdə maliyyə sağlamlaşdırılması dövlətin qiymət tənzimlənməsinin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Xüsusilə, daha çox istehsal həcminə malik olan kənd təsərrüfatı müəssisələrində onların maliyyə borclarının restruktizasiya edilməsi, kredit borclarının silinməsi alınmış kredit görə faiz dərəcələrinin güzəştli şərtlərlə azaldılması dövlətin aqrar siyasəti çərçivəsində reallaşdırılır. Aqrar sahibkarlara büdcə fondları vasitəsilə dəstək verilməsi və onların istehsal prosesinə xərclərin azaldılmasının nəticəsində aqrar sahibkar daxili və xarici bazarlarda məhsulları daha münasib qiymətlərlə, yəni minimum qiymətlərlə təklif edəcək. Son nəticədə istehlakçıların alıcılıq qabiliyyətini artırır.

İnkişaf etmiş ölkələrdə dövlət istehsal proseslərinin nəticələrinə əhəmiyyətli dərəcədə təsir göstərmək məqsədi ilə qiymətin stimullaşdırıcı funksiyalarından istifadə edir. Aqrar sahibkarlıq fəaliyyətində qiymətin stimullaşdırıcı funksiyaları kənd təsərrüfatı əmtəə istehsalçılarının təsərrüfat-maliyyə fəaliyyətinə də əhəmiyyətli dərəcədə təsir göstərir.

Kənd təsərrüfatı məhsullarının istehsalçıları ilə emal müəssisələri arasında formalaşmış qarşılıqlı münasibətlərin təkmilləşdirilməsinin başlıca şərti məhsulun qiymətlərinin istehsalçılar üçün səmərəli xarakter daşımasıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, emal müəssisələri istehsalçı təsərrüfat subyektlərinin optimal infrastruktur sisteminin mövcudluğunda daha çox maraqlıdır.

Respublikamızda aqrar sahənin dayanıqlı inkişafının maliyyə təminatının möhkəmləndirilməsinin mühüm istiqamətlərindən biri kimi kənd təsərrüfatı istehsalçılara verilən dövlət yardımının həcmi artırılmalıdır. Aqrar sahənin dayanıqlı inkişafında dövlət yardımının rolunun artırılması məqsədi ilə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- aqrar sahəyə subsidiyaların verilməsi mexanizminin təkmilləşdirilməsi;

- maliyyə yardımının verilməsində differensial yanaşmaların tətbiqi və dünya ölkələrinin təcrübəsindən istifadə edilməsi.

Nəticə etibarilə aqrar sahibkarlığın formalaşması və inkişaf etdirilməsində dövlətin maliyyə-kredit siyasəti əsas yer tutur. Bu baxımdan aqrar sahibkarlara həm yerli, həm də beynəlxalq təşkilatların maliyyə yardımı sisteminin təşkili işinin yaxşılaşdırılması məqsədyönlü xarakter daşımalıdır.

Aparılmış araşdırmalar göstərir ki, aqrar sahənin maliyyə sağlamlaşdırılması dövlət qarşısında duran ən mühüm vəzifələrdən biridir. Xüsusilə, daha çox istehsal həcminə malik olan kənd təsərrüfatı müəssisələrində onların maliyyə borclarının restruktizasiya edilməsi, kredit borclarının silinməsi, alınmış kreditə görə faiz dərəcələrinin güzəştli şərtlərlə azaldılması dövlətin aqrar siyasəti çərçivəsində reallaşdırılır.

Təbii ki, məhdud resurslar şəraitində kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsi mühüm strateji əhəmiyyətə malikdir. Əslində kənd təsərrüfatında resursların məhdudluğu sahənin spesfik xüsusiyyətlərindən irəli gəlir. Bundan əlavə kənd təsərrüfatının investisiya cəlbediciliyinin aşağı olması iqtisadiyyatın digər sahələri ilə müqayisədə adı çəkilən sahədə əsas fondların fiziki və mənəvi cəhətdən yeniləşməsi imkanlarını məhdudlaşdırır. Beləliklə də kənd təsərrüfatında resursların məhdudluğu özünü aşkar şəkildə biruzə verir. Odur ki, məhdud resurslar şəraitində kənd təsərüfatında infrastruktur sisteminin müasir tələblərə cavab verməsi zəruridir.

Ümumiyyətlə, maliyyə sisteminin inkişaf etdirilməsi kənd təsərrüfatında davamlı inkişafın təməl prinsiplərinin əsasını qoyur ki, bu da bilavasitə ərzaq bazarında qiymətlərin səviyyəsinin sabitləşdirilməsində öz əksini tapır. Nəzərə almaq lazımdır ki, maliyyə-kredit sisteminin inkişaf etdirilməsi nəticəsində qiymətin əsasını təşkil edən elementlərin səviyyəsini bazar özünütənzimləmə mexanizminin təməl prinsiplərinə təsir göstərməmək şərti ilə tənzimləmə tədbirləri həyata keçirilə bilər. Bütün bunlarla yanaşı aqrar sahibkarlığın inkişafı məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab olunur:

- aqrar-sənaye sistemində əmtəəlik məhsul istehsalına çəkilən xərclərin aşağı salınması;
- hər bir növlər üzrə məhsulun keyfiyyətinin yüksəldilməsi;
- kənd təsərrüfatında istehsal və əmək məhsuldarlığın səviyyəsinin yüksəldilməsi;
- kənd təsərrüfatı əmtəə istehsalçılarının məhsul satışından əldə olunan mənfəətin həcminin artınlması və rentabelliyin yüksəldilməsi;
- məhsul itkisinin azaldılması;
- kənd təsərrüfatı məhsularının istehlakçılara çatdırılmasında mövcud problemlərin aradan qaldırılması;
- elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin kənd təsərrüfatı istehsalına tətbiqinin stimullaşdırılması;

- daxili və xarici bazarlarda baş verən konyuktur dəyişikliklərlə bağlı kənd təsərrüfatı istehsalçılarına zəruri informasiyaların çatdırılması.

Bu tədbirlər nəticəsində aqrar sahədə maliyyə vəziyyətinin və ərzaq bazarında qiymətlərin səviyyəsinin sabitləşdirilməsinə nail olmaq mümkündür.

Dissertasiya işinin sonunda aparılan tədqiqat işinin nəticələri ümumiləşdirilərək müvafiq tövsiyə və təkliflər verilmişdir.

Dissertasiyanın əsas müddəaları dərc olunmuş aşağıdakı elmi məqalələrdə öz əksini tapmışdır:


1. Aqrar sənaye sistemində maliyyə yardımlarının istehsalın səmərəliliyinə təsiri. Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi. Beynəlxalq elmi -praktik konfransın materialları. Azərbaycan Kooperasiya Universiteti. Bakı, 27-28 iyun 2012. səh. 739-743.

2. Aqrar sahibkarlıq fəaliyyətində maliyyə təminatının yaxşılaşdırılmasında kredit təşkilatlarının rolu. Azərbaycan Milli Elmlər Akademiyası. İqtisadiyyat İnstitutu, № 3, 2013 səh.274-279.

3. Aqrar sahibkarlıq fəaliyyətində maliyyə təminatını artıran əsas amillər. Azərbaycan Milli Elmlər Akademiyası. İqtisadiyyat İnstitutu. Bakı, 2013, № 4. səh. 295-298.

4. Государственная поддержка аграрных предпринимателей и ее воздействие на финансовые резултаты. Актуальные вопросы развития финансовой сферы стран и регионов. Материалы международной научно-практической конференции статья: 13 апрел 2013, Махачкала, стр. 219-222.

5. Aqrar sənaye sistemində maliyyə təminatının təkmilləşdirilməsi və qiymətləndirmə məsələləri. “Regional iqtisadi siyasət və Kooperasiya münasibətlərinin inkişafı” Beynəlxalq elmi-praktiki konfransın materialları. AKU. Bakı, 22 noyabr 2014, səh.606-609.

6. Azərbaycan Respublikasında aqrar sənaye müəssisələrinin iqtisadi səmərəliliyinin yüksəldilməsində kreditləşmənin rolu Azərbaycan Texnologiya Universiteti. Gəncə,“Konfrans-2014”, səh. 335-340.

7. Совершенствование финансово-кредитных механизмов аграрно-предпринимательских субъектов в Азербайджанской Республике. Экономика и предпринимательство №4, ч, 2 2014, стр.850-854.

8. Aqrar sahibkarlığın formalaşmasında maliyyə mənbələri və onun inkişafında kredit mexanizminin rolununun artırılması yolları. Azərbaycan Milli Elmlər Akademiyası. İqtisadiyyat İnstitutu. Elmi əsərlər №1, 2014, səh 316-323.




# РЕЗЮМЕ

**Арзу Рагим кызы Сулейманова**

## Организационно-экономические проблемы совершенствования финансово-кредитного механизма в развитии аграрного предпринимательства

В диссертации исследованы основные факторы развития предпринимательства в аграрной сфере и основные направления его развития.

Во введении диссертационный работы обоснована актуальность исследуемой темы, уровень изученности проблемы, определены цели и задачи, указанны теоретическая и практическая значимость достигнутых научных результатов.

В первой главе "Теоретико-методоголические вопросы формирования и развития предпринимательства в аграрной отрасли" изучены основные факторы и закономерности развития аграрного предпринимательства, а также финансовая обеспеченность и международный опыт регулирования цен в сфере, аграрного предпринимательства.

Во второй главе работы проанализировано современное состояние механизма кредитования сельскохозяйственных производителей и основных факторов, обусловливающих эффективность аграрного производства. Соответствующий анализ охватывает период 2009-2014 гг.

Третья глава исследования называется "Основные направления совершенствования финансово-кредитного механизма в развитии аграрного предпринимательства". В данной главе определены приоритетные направления совершенствования системы государственного регулирования на сельском хозяйстве.

В заключительной части кратко изложены обобщения, предложения и рекомендации автора, полученные в результате иследования.



## SUMMARY

**Arzu Rahim Suleymanova**

**Organizational-economic problems of improving the financial and credit mechanism in the development of agrarian business**

The dissertation studies the main factors of development of enterprise-neurship in the agricultural sector and the main directions of its development.

In the introductory part of the study the actuality of the topic, studied the level of scrutiny of the problem, goals and objectives, we have proved the theoretical and practical importance of scientific innovations achieved.

In the first chapter of the study, entitled “metodogolicheskie theoretical questions of formation and development of enterprise in the agricultural industry”, studied the main factors and patterns of development of the agricultural enterprise-neurship and financial security and the international experience of price regulation in this area.

The second chapter analyzes the current state of the mechanism of crediting of agricultural producers and the major factors causing the efficiency of agricultural production. The relevant statistical data analysis covers the period 2009-2014.

In the third chapter of the study called “The main directions of improving the financial and credit mechanism in the development of agrarian business” as a result of research in this chapter identified priority areas for improving the system of state regulation on agriculture.




Kağız formatı (210x297)¼
Kağız №1, uçot çap vərəqi 1,0 ç.v.
Sifariş № 24, tiraj 100

**Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi**

Rezoqrafiya üsulu ilə çap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102

**МИНИСТЕРСТВ КОГО ХОЗЯЙСТВА**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

---

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Сулейманова Арзу Рагим кызы**

# Организационно-экономические проблемы совершенствования финансово-кредитного механизма в развитии аграрного предпринимательства

**5312.01 - “Отраслевая экономика”**

## А В Т О Р Е Ф Е Р А Т

Диссертации на соискапие научной степены доктора философии по экономики

**Гянджа - 2016**